Dilbər CƏFƏRLİ

# AZƏRBAYCAN, SƏNİ HEYDƏR YAŞATDI

*(şe'rlər)*

4751060204
053-2000

© "Әчәми" 2001.

# EL DUASI

## SAĞ OLSUN HEYDƏRİN, VƏTƏN

Dünya kitab, varaqlaram,
Tariximi soraqlaram.
Torpağını qucaqlaram,
Sağ olsun Heydərin, Vətən!

Haqdan gələn bir ocaqdır,
Odu sönməz gur ocaqdır.
Gələcəyin olacaqdır,
Sağ olsun Heydərin, Vətən!

Tarixində Xətai var,
O tayı var, bu tayı var.
Hər ürəkdə öz payı var,
Sağ olsun Heydərin, Vətən!

Haqdan gəlib, haqq səsidir,
İlahinin kimsəsidir.
Elin duası bəsidir,
Sağ olsun Heydərin, Vətən!

Gülüş qonub üzümüzə,
Qüvvət gəlib dizimizə,
İşıq verib gözümüzə,
Sağ olsun Heydərin, Vətən!

Xalqın qeyrətin daşıyar,
Daşıyar, mətin daşıyar.
O, əbədi yaş yaşayar,
Sağ olsun Heydərin, Vətən!

**1997.**

## AZƏRBAYCAN, SƏNİ HEYDƏR YAŞATDI !

Odlar yurdu! Sinəsi qan olanım,
Bulud kimi boşalanım, dolanım,
Əsrlərdən-əsrlərə qalanım,
Yadlar gəlib torpağına daş atdı,
Azərbaycan, səni Heydər yaşatdı!

Durnaların yollarını itirdi,
Kəhər atlar nallarını itirdi.
Babəkimiz qollarını itirdi,
Namərd oğlu gör necə də tuş atdı,
Azərbaycan, səni Heydər yaşatdı!

Qonan oldu ağacda min budağa,
Qoyan oldu dilimizə qadağa,
Ulu Tanrım, gərək verək "sadağa",
Bu gülləni atanlar da çaş atdı,
Azərbaycan, səni Heydər yaşatdı!

Ey Xətai! Torpağında haram yox,
Qarış-qarış bölünənim, param, ox!
Nisgilim çox, şəhidim çox, yaram çox,
Gözlərimiz məzar üstə yaş atdı,
Azərbaycan, səni Heydər yaşatdı!

Doğma Vətən o taylıdır, bu taylı,
Yolu sonsuz, gədikləri dolaylı,
Qayaları Qara Çoban haraylı,
Leysandımı, yağış, yoxsa gurşaddı?!
Azərbaycan, səni Heydər yaşatdı!

Mən qalmışam Zəngəzursuz, Şuşasız,
Gözüm yaşı, torpağa sız, daşa sız!
Cavabdehlər, getmişdiniz huşa siz?
Vəzirovlar baş buladı, qaş atdı,
Azərbaycan, səni Heydər yaşatdı!

Səf-səf arzum göyərə kaş, sayam kaş,
Üçrəng bayraq Xankəndinə qoyam kaş!
Bu müjdəni, Dilbər, elə yayam kaş:
Zər vermirdi, atan gözəl şeş atdı,
Azərbaycan, səni Heydər yaşatdı!

**1997.**

## HEYDƏRİM

Elimizin od oğlusan, odusan,
Qeyrətisən, şöhrətisən, adısan.
Ayırmadın doğmanı sən, yadı sən,
Dağ vüqarlı, şah vüqarlı Heydərim,
El yolunda e'tibarlı Heydərim!

Ürəyimə çox vurulub yara, bax,
Savalansan, başındakı qara bax.
Ümidi sən, yol gözləyir Qarabağ,
Dağ vüqarlı, şah vüqarlı Heydərim,
El yolunda e'tibarlı Heydərim!

Mən qurbanam allah yazan yazına,
Qur'an kömək olsun o saf arzuna.
Köklənmisən Qorqudumun sazına,
Dağ vüqarlı, şah vüqarlı Heydərim,
El yolunda e'tibarlı Heydərim!

Keçib getdi, əl yetmədi ötənə,
Biz nə deyək itirənə, itənə?!
Cavidimi sən gətirdin Vətənə,
Dağ vüqarlı, şah vüqarlı Heydərim,
El yolunda e'tibarlı Heydərim!

Xalqına bağlıdır ürəyin, canın,
Vətənçün dolanır damarda qanın.
Sənədir ümidi Azərbaycanın,
Dağ vüqarlı, şah vüqarlı Heydərim,
El yolunda e'tibarlı Heydərim!

**1997.**

## İLAHİ, QORU

Böyük ürəyinə ürək çatmadı,
Namusu, qeyrəti, arı atmadı.
Şeytan qulağında-dalda yatmadı,
İlahi, Heydəri qoru dünyada!

Yolumuz haraydı, hara gedirdik?
Olmuşduq min tikə, para, gedirdik.
Əməlli-başlıca tora gedirdik,
İlahi, Heydəri qoru dünyada!

Məğrur cüssəlidi, ər oğlu ərdi,
Siyasət yolunda yolu zəfərdi.
Xalqına qaladı, bürcdü, sipərdi,
İlahi, Heydəri qoru dünyada!

Torpağa nahaq qan tökülməsin heç
Əsəblər tarıma çəkilməsin heç.
Vətənimin beli bükülməsin heç,
İlahi, Heydəri qoru dünyada!

Günəşin qürubdan doğan çağıdır,
Gülüstan bağıdır, cənnət bağıdır,
Savalan dağıdır, Qoşqar dağıdır,
İlahi, Heydəri qoru dünyada!

Vətəni alovdan, oddan qorudu,
Odlar ölkəsinin odu, qorudu.
Sulardan durudu, aydan arıdı,
İlahi, Heydəri qoru dünyada!

Namus qalasıdır, elin atası,
Quşqonmaz zirvəyə əli çatası.
Gəldi ki, sovuşsun elin xatası,
İlahi, Heydəri qoru dünyada!

And yeri Qur'andı, Bayraqdı onun,
Əməli yoluna çıraqdı onun.
Sözü həm silahdı, yaraqdı onun,
İlahi, Heydəri qoru dünyada!

Nurdan yaranıbdır ilki, əzəli,
Ona kömək olsun Məhəmməd, Əli!
Açıqdı göylərə Dilbərin əli:
İlahi, Heydəri qoru dünyada!

## EL ATASI

İblislərin fitnəsindən
zara gəldi Azərbaycan,
Sürükləndi, pərənləndi,
hara gəldi Azərbaycan...
Uca göydən dərdlərinə
çarə gəldi, Azərbaycan,
Dədə Heydər-el atası!

Elin ümid qapısıdır,
qibləgahı, pənahıdır,
Ordumuzun komandanı,
baş cinahı, silahıdır,
Həqiqəti-and yeridir,
siyasətin Allahıdır.
Dədə Heydər-el atası!

Şah Xətai varisidir,
əsgəridir-"qızılbaş"ı.
Özü bir nur heykəlidir,
təmiz fikri, qızıl başı.
İlahidən gələn səsdir,
kamalı sirr, özül başı,
Dədə Heydər-el atası!

O, sənətə, sənətkara
qiymət verən el oğludur,
Filosofdur, tənqidçidir,
tarixçidir, dil oğludur.

Hər sahədə örnək olan
ədəb-ərkan, yol oğludur.
Dədə Heydər-el atası!

Vətənimin səmasıdır:
həm ulduzlu, həm aylıdır,
Amalında birlik yaşar,
Xudafərin haraylıdır.
Şimallıdır, cənubludur,-
o taylıdır, bu taylıdır
Dədə Heydər-el atası!

Çətin gündə, dar ayaqda
xalqın qeyrət qalasıdır,
Düşmənlərdən, qatillərdən
el qisasın alasıdır.
Dilbər deyər, əbədidir,
həmişəlik qalasıdır,
Səksən nədir, doxsan nədir?
Yüzü yola salasıdır
Dədə Heydər-el atası!

<u>**Dekabr, 1997.**</u>

## "İLİN ADAMI"

İnsan var, kamalı aşıb-daşandır,
Kədəri, sevinci qoşalaşandır,
Daim vətənilə qucaqlaşandır,
Yurduna bağlıdır eşqi, ilhamı
Heydər Əliyevdir "İlin adamı!"

Qəmli günümüzə sevinc ələyən,
Hər evə bərəkət, şadlıq diləyən,

Dağıma, düzümə çiçək çiləyən
Çiçəyin adamı, gülün adamı,
Heydər Əliyevdir "İlin adamı!"

And içdi Qur'ana, uca Bayrağa,
Əzəldən bağlıdır ana torpağa,
Xalqının yolunda döndü çırağa,
Dilini qorudu elin adamı,
Heydər Əliyevdir "İlin adamı!"

Ayaq qoymadığı bir ölkə hanı?!
Gəzdi oymaq-oymaq bütün dünyanı,
Bayrağa çevirdi Azərbaycanı,
Muğanın adamı, Milin adamı,
Heydər Əliyevdir "İlin adamı!".

Zəngilan, Kəlbəcər, Horadiz, Şuşa,
Havayı gülləydi gəldilər tuşa!
Laçınım, Xocalım düşdü qarğışa?
Tanıyın adamı, bilin adamı!
Heydər Əliyevdir "İlin adamı!"

Həmişə xalq üçün yaşayan Dədə,
Şəhidlik adına baş əyən Dədə!
Ağlı, hünərilə daş əyən Dədə!
O, selin oğludur, selin adamı,
Heydər Əliyevdir "İlin adamı!".

Başını uca tut, ay ulu xalqım,
Sinəsi hikmətlə ay dolu xalqım!
O seçdi azadlıq, sülh yolu, xalqım,
Elin pənahıdır, elin adamı,
Heydər Əliyevdir "İlin adamı!"

<u>**Fevral, 1998.**</u>

## YETİRİB

Bir ürək var, milyonlara pay düşüb,
Üstümüzə günəş düşüb, ay düşüb,
Qış ömrümə bahar gəlib, yay düşüb,
Ana torpaq çoxlu bəhər yetirib,
Mənim xalqım Ulu Heydər yetirib!

Dilə düşüb Cavanşirin qeyrəti,
Qorqud babam bizə verib hikməti.
Analarda Burla Xatun isməti,
Daha kimlər, daha nələr yetirib,
Mənim xalqım Ulu Heydər yetirib!

Ulu Babək, Qoç Koroğlu əvəzi,
Ana Tomris, Şah Xətai nəvəsi,
El-obanın ümid dolu həvəsi,
Yurda oğul, xalqa sərvər yetirib,
Mənim xalqım Ulu Heydər yetirib!

Şəhid qanı axan torpaq məkanı,
Xalqa verir nəyə çatsa imkanı,
Əlindədir bu dünyanın sükanı,
Belə dahi, belə hünər yetirib,
Mənim xalqım Ulu Heydər yetirib!

Ədalət, cəsarət, qeyrət rəmzidir,
Həqiqət rəmzidir, cür'ət rəmzidir.
Düşmənə, nankora nifrət rəmzidir,
Qalxan, qala, haqdan sipər yetirib,
Mənim xalqım Ulu Heydər yetirib!

Əlindədir siyasətin bayrağı,
Eldən gəlib, olub elin dayağı.
Xeyirlidir, uğurludur ayağı,
Əməlilə vüqar, zəfər yetirib,
Mənim xalqım Ulu Heydər yetirib!

Büllur bulaq, saf çeşmənin gözüdür,
Nizaminin qüdrətidir, sözüdür.
Generaldır, baş komandan özüdür,
Elə pənah, döyüşə ər yetirib,
Mənim xalqım Ulu Heydər yetirib!

Kim yanacaq, Odlar yurdu, odunda?!
Kim qalacaq əbədilik yadında?
Dilbər deyər Dədə Heydər adında
Böyük sima, böyük rəhbər yetirib,
Mənim xalqım Ulu Heydər yetirib.

<u>**Aprel, 1998.**</u>

## XALQ SƏNƏ MÜƏLLİM DEDİ

Xalqının taleyində
parlayan ulduz oldun,
Halallığa tapınan
çörək oldun, duz oldun.
Ay işığım, ay nurum!
Əbədi, sonsuz oldun,
Vətən sənə sağ əlim,
sənə sağ əlim dedi,
Xalq sənə müəllim dedi.

Zəngəzur harayından
doğulmusan, deyəsən,

Göyçənin qeyrətindən
yoğrulmusan, deyəsən.
Şuşanın yanğısından
qovrulmusan, deyəsən,
Ümmanların içində
kükrəyən selim dedi,
Xalq sənə müəllim dedi.

Bir az da yubansaydın,
soyuqluqdan donan kim,
Pərən-pərən olan kim,
yad budağa qonan kim,
Oyandı məzarında
Şah Xətai, inan ki,
"Mən də sənə arxayam,
dayan dikəlim"!-dedi.
Xalq sənə müəllim dedi.

Ay müdrikim, aqilim,
möhtacıq hər an sənə,
"İlin adamı" dedi
bu əsr, dövran sənə,
Dayaqdı göydə Allah,
yerdə hər duyan sənə,
Doğma Vətən torpağı
eşqim, əməlim dedi,
Xalq sənə müəllim dedi.

Neçə məktəb keçmisən,
indi məktəbsən özün,
Nadanlar nə bilir ki,
dərdə məlhəmdir sözün,

Xalqa ziya bəxş edir
o gözəl, nurlu üzün,
Dünənki körpələr də
qoynuna gəlim dedi,
Xalq sənə müəllim dedi.

Kəlbəcərin saf suyu,
Naxçıvanın duzusan.
Ömrümüzün ağ günü,
alnımızda yazısan.
Dilbər deyər, qoyursan
çox arxada bizi sən,
Kimi sənə tarixim,
kimi də dilim dedi,
Xalq sənə müəllim dedi!

**yanvar, 1999.**

## BİR QALA

Azərbaycan özü boyda gözəl bağ,
Tər gülündən, çiçəyindən hey dərin.
Dədə Heydər-Şah Xətai hünərli
Xalqı üçün fikirləşir hey dərin.

Tikdiribdir hünərindən bir qala,
Odlar yurdu, ocağını bir qala.
Dilbər deyər Vətənimlə bir qala
Heydər-döyüş, Heydər-haray, Heydər-ün!

Xızır içdi əbədilik ulu su,
Dədə demə, ululların ulusu!

El oğludur, böyük eli, ulusu,
Ana Vətən, yaşayacaq Heydərin!

yanvar, 1998.

## DİLƏ DÜŞÜB

Şe'r yazım eloğlumun adına,
Qızınıbdır Odlar yurdu oduna.
Tanrım çatsın hər addımda dadına,
Halal olsun qazandığı şöhrəti,
Dilə düşüb Talıbovun qeyrəti.

Ona deyim əyilməyən bir qala,
Rast gəlməsin bir qovğaya, bir qala.
Həmişəlik Naxçıvanla bir qala,
Babalardan miras qalıb cür'əti,
Dilə düşüb Talıbovun qeyrəti.

Torpağımı candan əziz tutandır,
Kimsəsizin harayına çatandır.
Dərd-sərini el qeydinə qatandır,
Uca tutub nəcabəti, hörməti,
Dilə düşüb Talıbovun qeyrəti.

Ona deyək Naxçıvanın çırağı,
Abad edir gündən-günə torpağı.
Xalqı üçün xoşbəxt gündür marağı,
El yolunda sınanıbdır qüdrəti,
Dilə düşüb Talıbovun qeyrəti.

# YURD SEVDASI

## MƏNİM NAXÇIVANIM

Misra-misra şe'rə döndü söz ürəyimdə,
Mən bir ağac parçasıyam, köz ürəyimdə.
Əcəminin harayından qopan nida tək
Sən "Naxçıvan" kəlməsini yaz ürəyimdə.

Hüseyn Cavid, Mirzə Cəlil, Bəhruz diləkli.
Tarixlərə sinə gərib məğrur ürəkli.
Çeşmələri gözəllərin qaynar gözü tək,
Oğulları saf əməlli, polad biləkli.

Araz ona layla çalan anadır, bəlkə,
Birləşməyə qoymur çayın inadı, bəlkə?
Bir şairin taleyinə, adına köçdü-
Araz Məmməd İbrahimi qınadı, bəlkə?

Pis gününün şahidləri-ahılları var,
Hər daşında dastanları, nağılları var.
İgid ərlər, mərd analar yurdudur bu yer,
"Əlincə"dən qüvvət alan oğulları var.

"Əcəminin naxışları neçə sirr deyir:
Tarixlərdən xəbər verir "Yusif Üzeyir",
Baxdım "Qızlar bulağı"nın seyrəngahına,
Axıb gəldi ürəyimdən bir bulaq şe'r.

Tarixləşib neçə ömür yaşında onun,
Mən baharın ətrin duydum qışında onun.
Nə qədər ki, yaşayıram, ürəyimdədir,
Öləndə də bitəcəyəm döşündə onun.

## QOY DANIŞIM...

Doğma Vətən, sevincinə bələnəm,
Çiçək olub, sinən üstə ələnəm,
Baş qoyanam, yolunda mən ölənəm,
Qoy danışım millətimin adından!

Tomrisimin qeyrətinə qurbanam,
Həcərimin cür'ətinə qurbanam,
Ülfətinə, qüdrətinə qurbanam,
Qoy danışım millətimin adından!

Yazan da biz, qəm yazısın pozan da,
Yuxuları xeyirliyə yozan da.
Qələm-qopuz: şair də biz, ozan da,
Qoy danışım millətimin adından!

Qarabağım bayatımdır, ağımdır,
Xarı bülbül dara düşən bağımdır,
Murov mənim dağımdır-göz dağımdır,
Qoy danışım millətimin adından!

Könlüm gəzər Şah Xətai davası,
Qulağımda yatar "Cəngi" havası,
Laçınımdır laçınların yuvası-
Qoy danışım millətimin adından!

Daha enməz Azərbaycan bayrağı
Xalqımızın növrağıdır, növrağı.
Heydər olub elimizin dayağı-
Qoy danışım millətimin adından!

Naxçıvanam, Atabəydən nişanam,
Kükrəyənəm, qaynayanam, daşanam,
Mən Dilbərəm, elə şe'r qoşanam,
Qoy danışım millətimin adından!

## VƏTƏN

Yaşayıram sinəndə mən,
Baş əyirəm önündə mən,
Ağlaram dar günündə mən,
Döndüm səsə, ünə, Vətən,
Qurban olum sənə, Vətən.

Həqiqətə baxışınam,
Bir ömürəm-naxışınam,
Nur gətirən yağışınam,
Göydən endim yenə, Vətən,
Qurban olum sənə, Vətən!

Atəşinə yandım, yurdum,
Fikrim, eşqim, andım yurdum.
Səni ana sandım, yurdum,
De "övladım" mənə, Vətən,
Qurban olum sənə, Vətən.

Fərəhindən coşmağa da,
Hərdən aşıb-daşmağa da,
Şə'ninə söz qoşmağa da
Doludur bu sinə, Vətən,
Qurban olum sənə, Vətən.

Çox bəlalar var başında,
Bir tarixdir hər daşın da.
Qarı düşmən də qarşında
Diz çökərək enə, Vətən,
Qurban olum sənə, Vətən.

Şöhrətini vəsf etməyə,
Harayına tez yetməyə,
Yolunda qurban getməyə
Mən keçərəm önə, Vətən,
Qurban olum sənə, Vətən.

Mənim andım, şah vüqarım,
Söz ilqarım, düz ilqarım.
Dilbər deyər könül tarım
Şad günündə dinə, Vətən,
Qurban olum sənə, Vətən!

## OLDU

Çox şahları yedi dünya,
Öz sözünü dedi dünya,
Gidi dünya, gidi dünya
Yalan oldu, yalan oldu.

Ana Vətən-mənim butam,
Doğma anam, doğma atam.
Yağı sənə etdi sitəm,
Olan oldu, olan oldu.

Düşdüyümüz bu tora bax,
Kömək istəyir Qarabağ,
Yad əllərdə ana torpaq
Qalan oldu, qalan oldu.

Bu güllərin yarı-bülbül,
Yarı güldü, yarı bülbül,
Namərd qıydı, Xarı bülbül
Solan oldu, solan oldu.

Nə deyim bu acı dilə!
Yollarıma xeyir dilə.
Dost könlümü şirin dillə
Alan oldu, alan oldu.

Olmusan dilimdə əzbər,
Çiçəklərin qoxur ənbər.
Vətən, sənə qurban, Dilbər
Balan oldu, balan oldu.

## QƏDƏR

Mən nələr çəkmişəm, nələr çəkmişəm
Vətənim xoş günlər görənə qədər,
Sevinci əkmişəm, dərdi biçmişəm
Taleyim üzümə gülənə qədər.

Ürəyim dolanda qəhər içərəm,
Mərdlərin əlindən bəhər içərəm.
Lap yeri gələndə zəhər içərəm
Gözümün yaşını silənə qədər.

Gözəl müjdələrin sorağıyam mən,
Yaşıl çinarların yarpağıyam mən.
Bir ovuc Azəri torpağıyam mən,
Gözlərəm qəriblər gələnə qədər.
Baharı gözləyən qaranquş olsam,
Gülün həsrətindən yaranmış olsam,
Tikanlı məftillər yaran quş olsam,
Gəzərəm yerini bilənə qədər.

Dağlardan əzəmət, vüqar istərəm,
Vətən torpağından nübar istərəm.
Əbədi yatmağa məzar istərəm
Yaşasam üstündə ölənə qədər.

## BİR GÜNƏŞİN ODU

Ana Vətən! Anamızın anası,
Bir günəşin odu yanar sinəmdə.
Övladınam-sənə candan yanası,
Bir günəşin odu yanar sinəmdə.

Dar günündə hara getsəm, gələrəm,
Göz yaşımı yollarına çilərəm.
Yağıların başına od ələrəm,
Bir günəşin odu yanar sinəmdə.

Nəsiminin inadından yarandım,
Silahımdır Vətən andım, yar andım,
Yalan desəm, qılınc götür, yar andım,
Bir günəşin odu yanar sinəmdə.

Vətənimin sinəsində ox yeri,
Yağılara göz dağıdır çox yeri.
Satqınların torpağımda yox yeri,
Bir günəşin odu yanar sinəmdə.
Bu torpağın namərdi var, mərdi var,
Afiyəddin, Şəmsi, Ziya dərdi var.
Nə qədər ki, Azərbaycan yurdu var,
Bir günəşin odu yanar sinəmdə!

## MƏNİM BEŞİYİM

Başına dolanım, ay ana yurdum,
Sənin hər bucağın mənim beşiyim.
Getmərəm qoynundan heç yana, yurdum,
O isti ocağın mənim beşiyim.

Nizami yurdunun öz aləmi var,
Sənət dünyası var, söz aləmi var.
Fikri, həqiqəti, düz kəlamı var,
Gəncən, Qarabağın mənim beşiyim.

Beş yüz il yol gəlib Füzuli babam,
Lirik şe'rimizin özülü babam.
Məzarı bu yurddan üzülü babam,
Kərbəla, qucağın mənim beşiyim.

Arifsiz qalmadı Hüseyn dünyada,
Getdi, o dünyada çatdı murada.
Necə salmayasan Vurğunu yada?!
Tovuzun, Qazağın mənim beşiyim.

Ələsgər irsini yaşatdı Şəmşir,
Yaşının üstünə yaş atdı Şəmşir.
Dərdini dağlara boşaltdı Şəmşir,
Murov, Dəlidağın mənim beşiyim.

Xudu xəzinəydi, Xudu açardı,
Naxışı ürəyə yollar açardı.
Xalqın hər dərd-səri ona düçardı,
Ağdamın-göz dağın mənim beşiyim.

Yurduma baxaram Xəzər gözüylə,
Şöhrət qazanmışam Muğan düzüylə,
Günəş hərarəti, çəmən iziylə
Aranin, yaylağın mənim beşiyim.

Şə'ninə söz qoşum dinəndə sənin,
Cənnət məkanıdır sinən də sənin.
Dilbər də yatacaq sinəndə sənin,
Naxçıvan torpağı mənim beşiyim.

**Yanvar, 1998.**

## ANA KƏNDİM

Səndə xatirəli günlərim qalıb,
Sözlərim, səslərim, ünlərim qalıb.
Güzəştlərim qalıb, günlərim qalıb,
Sənsən ömrüm-günüm, ay ana kəndim.

Dolanbac yolların həyat sınağım,
Bir az umacağım, bir az qınağım.
Bütün qayğıların mənim qonağım,
Sənsən ömrüm-günüm, ay ana kəndim.

Şirin bir arzumsan, çin olan yuxum,
Ay mənim rayihəm, ay mənim qoxum.
İndi sənə necə uzaqdan baxım?!
Sənsən ömrüm-günüm, ay ana kəndim.

Gileyim dağlarda qaldı, bilirəm,
Çiçəklərin yada saldı, bilirəm.
Gedən getdi, qalan qaldı, bilirəm,
Sənsən ömrüm-günüm, ay ana kəndim.

Sinən üstə pozulmayan izlərim,
Remeşinim, sənə bağlı sözlərim,
Mən Dilbərəm, qurban olsun gözlərim,
Sənsən ömrüm-günüm, ay ana kəndim.

## ŞƏHİD YATIR QUCAĞINDA

Ana torpaq, qara torpaq!
Şəhid yatır qucağında!
Düşmən vurdu yara, torpaq,
Şəhid yatır qucağında!

Düşməni tutsun göz yaşı,
Özünə qarışsın başı,
Yağdır lə'nəti, qarğışı,
Şəhid yatır qucağında!

Gülü burnunda solan var,
Bircə körpəsi olan var.
Neçə arzusu talan var,
Şəhid yatır qucağında!

Gözlər yığılmaz yollardan,
Kim xəbər verər onlardan?!
Muğayat ol oğullardan,
Şəhid yatır qucağında!

Yarasının gözün bağla,
Anasısan, özün ağla.
Əmanətdir, yaxşı saxla,
Şəhid yatır qucağında!

Yanvar, 1990.

## BU DAĞLARIN BAŞINA

Durnaları qanadından yaralı,
Gül-çiçəyi qəm-qüssədən saralı,
Haralısan, qoca qartal, haralı?
Bir baş vuraq zirvəsinə, qaşına,
Nələr gəlmiş bu dağların başına.

Kəkliyinin uçduğunu görmədim,
Ceyranının qaçdığını görmədim.
Obasının köçdüyünü görmədim,
Necə baxım kol-kosuna, daşına.
Nələr gəlmiş bu dağların başına.

Sənə qurban Bazar düzü-şah tağım,
Murovdağım, Dəlidağım, Şahdağım.
İndi olub aman dağım, ah dağım,
Həsrət qaldıq baharına, qışına,
Nələr gəlmiş bu dağların başına.

At oynadır bu yerlərdə yağılar,
Xiffətindən ürəyimiz dağılar.
Ellərinin dilindədir ağılar,
Qarı düşmən zəhər qatdı aşına,
Nələr gəlmiş bu dağların başına.

Dağlarımda Qoç Koroğlu izi var,
Ələsgərin söhbəti var, sözü var.
Dilbərin də bu dağlarda gözü var,
Yaşı çatıb qoca ərzin yaşına,
Nələr gəlmiş bu dağların başına.

## XUDU MÜƏLLİM

*Görkəmli alim Xudu Məmmədovun əziz xatirəsinə*

Bir alim oğlunu itirdi Vətən,
Əsl vətəndaşdı Xudu müəllim.
Onu torpağında bitirdi Vətən,
Məzardı, baş daşdı Xudu müəllim.

Yurdunu sevərdi canından artıq,
Xalqına bağlıydı qanından artıq,
İnsandı adından, sanından artıq,
Yurduma yurddaşdı Xudu müəllim.

Ağladı, gözünün qarası getdi,
Doğma Vətənimin harası getdi.
Qəlbində Qarabağ yarası getdi,
Bax belə soydaşdı Xudu müəllim.

Şimşəkdi, dağlarda o çaxan oldu,
Büllur bir bulaqdı, o axan oldu.
Ölümün gözünə dik baxan oldu,
Həyatla həmyaşdı Xudu müəllim.

Dağların zirvəsi yurd yeri idi,
Ata ocağıydı, mərd yeri idi,
Sinəsi dağlıydı, dərd yeri idi,
Araza qardaşdı Xudu müəllim.

Dağlarda xəzinə tapardı, getdi,
Biz çata bilməzdik, çapardı, getdi,

Hafizi, Fərmanı apardı getdi,
Vəfalı yoldaşdı Xudu müəllim.

Soldu, Vətənimin xəzan çağıydı,
Düşmənimə qəbir qazan çağıydı.
Qarabağ dərdini yazan çağıydı,
Əbədi yaddaşdı Xudu müəllim.

Təsəlli tapırdıq hər çıxışından,
Ümid, nur yağırdı gur baxışından.
Heç xəbər tutmadıq "yır-yığışından",
Torpağa sirdaşdı Xudu müəllim.

**Oktyabr, 1997.**

## QARA BAĞLAMA

***Şəhid Təbriz Xəlilbəylinin əziz xatirəsinə.***

Ürəyindən isti yağış süzülür,
Mirvaridir, kirpiyinə düzülür.
İnsaf elə, bu ürəyim üzülür,
Ana, sən başına qara bağlama,
Vurma ürəyimə yara, bağlama!

Qərənfillər acı deyir, yas deyir,
"Qəm-qüssəni boğazından as!" deyir,
Bənövşələr baş qaldırıb: "yaz" deyir,
Ana, sən başına qara bağlama,
Vurma ürəyimə yara, bağlama!

Ər oğuldur ər oğuldan seçilən,
Namərd kimdir? El gözündə kiçilən!
Azadlığın şərbətidir içilən,
Ana, sən başına qara bağlama,
Vurma ürəyimə yara, bağlama!

Ana torpaq yas libasın soyunar,
Təmizlik suyuna düşər, yuyunar
Şəhidlərim baş qaldırıb oyanar:
"Ana, sən başına qara bağlama,
Vurma ürəyimə yara, bağlama!".

Gedən bizik, dünya yenə olacaq,
O yenə də boşalacaq, dolacaq.
İgidlərim ürəklərdə qalacaq,
Ana, sən başına qara bağlama,
Vurma ürəyimə yara, bağlama!

Şəhidlərə qələm tutan əl ağlar,
Gözlər ağlar, ürək ağlar, dil ağlar.
Sən ağlasan, Vətən ağlar, el ağlar,
Ana, sən başına qara bağlama,
Vurma ürəyimə yara, bağlama!

**1992.**

## XOCALI

Şəhərimsən yer üzündən silinən,
Didim-didim oldun düşmən əlindən.
Yas tutaram, ağlayaram əlindən,
Güllə dəydi ürəyinə, Xocalı,
Çatammadım köməyinə, Xocalı!

Balaların qan içində eşilmiş,
Süngülərlə sinələri deşilmiş,
O başlardı, ayaqlardı-kəsilmiş,
Güllə dəydi ürəyinə, Xocalı,
Çatammadım köməyinə, Xocalı!

Cavanların qaldı qolsuz, ağladı,
Gilələrdə göz yaşı buz bağladı.
Mələykələr matəmini saxladı,
Güllə dəydi ürəyinə, Xocalı,
Çatammadım köməyinə, Xocalı.

Məmməd Araz, ağı deyib ağlama!
"Əziləcək yağı!"--deyib, ağlama!
"Sil ürəkdən dağı!"--deyib, ağlama.
Güllə dəydi ürəyinə, Xocalı,
Çatammadım köməyinə, Xocalı!

Olub-qalan elin düşdü aralı,
Nalələrdən gül-çiçəyin saralı,
Mən Dilbərəm, sənsiz qəlbim yaralı,
Güllə dəydi ürəyinə, Xocalı,
Çatammadım köməyinə, Xocalı!

## QARABAĞ

Nisgilli sinəmin göynəyən yeri,
Ürəkdən asılan daşdı Qarabağ.
Bəlkə, taleyimdir, alın yazımdır,
Gözlərimdən axan yaşdı Qarabağ.

Onu əsir edib yağı, mənimdir,
İtkin məzarlara ağı mənimdir.
Yadlar əlindədir, dağı mənimdir,
Qəfəsdə çırpınan quşdu Qarabağ.

Yaman nigarandır İsa bulağı,
Üzeyir ocağı, Bülbül ocağı.
Xan qızı gözləyir yenə sorağı,
Hələ baharı var, qışdı Qarabağ.

"Qurusun satanın əli!" deyirəm,
"Ona qənim olsun Əli!" deyirəm.
"Olmuşam dərdindən dəli" deyirəm,
Kiməsə qazancdır, aşdı Qarabağ.

Şuşamın dağları duman içində,
Ah! Xarı bülbülüm güman içində.
Ona boylanıram inam içində,
Vətənim üzükdür, qaşdı Qarabağ.

Bəxti açılacaq tarın səsindən,
Topxana pay verər gül nəfəsindən.
Qoy ayrı düşməsin Od ölkəsindən,
Gözəllər içində başdı Qarabağ.

**Dekabr, 1998.**

## DƏDƏ QORQUD–ATA KİTABIM

Ana yurdun taleyinə od düşüb,
Torpağıma basqın edib, yad düşüb,
Tariximə neçə belə ad düşüb,
Qobustanda daşa qonan kitabım,
Dədə Qorqud, mənim ata kitabım.

Bu günün də var Qazanı, Beyrəyi,
Yalıncıqlar gətirirlər köynəyi.
Qalır hələ o illərin göynəyi,
Gözlərimdə yaşa dönən kitabım,
Dədə Qorqud, mənim ata kitabım.

Dədəm Qorqud, mən saz çalım, sən qopuz,
Dərbəndimə bayatı de bir ağız.
Bir geri bax: iç oğuzam, daş oğuz,
İgidləri daşa dönən kitabım,
Dədə Qorqud, mənim ata kitabım.

Nə qədər ki, gül-çiçəkli yazım var,
Nə qədər ki, qopuzum var, sazım var.
Nə qədər ki, bu daşlarda yazım var,
Çatmayacaq hələ sona kitabım,
Dədə Qorqud, mənim ata kitabım.

Əlincəmin o dastanda adı var,
Şirin-şəkər sözlərimin dadı var.
Mən Dilbərəm, ürəyimin odu var,
Həqiqəti kimdir danan, kitabım?!
Dədə Qorqud, mənim ata kitabım.

**Oktyabr, 1996.**

## ANADIR

Qəlbimin istəyi, gözümün nuru,
Könül məhəbbətim anadır, ana.
Məleykə xislətli, bulaqdan duru,
Hissim-heysiyyətim anadır, ana.

Çiçəkdən zərifdir, güldən incədir,
Sonsuz arzuları hələ qönçədir,
Övlada diləyi başdır, öncədir,
Ən gözəl niyyətim anadır, ana.

Qurbanam saçında qırova, qara,
Onun əsiriyəm getsəm də hara.
Qoy nankor övladlar çəkilsin dara,
Təmiz ülviyyətim anadır, ana!

Qoynu cənnət bağı, qolları beşik,
Gecə də, gündüz də o çəkər keşik.
Onsuz qara geyər inan, ev-eşik,
Bütün dəyanətim anadır, ana!

Ayağı altında ölən olaram,
Gözünün yaşını silən olaram.
Qədir-qiymətini bilən olaram,
Haqqım, həqiqətim anadır, ana.

Dilbərəm, könlümün sonası anam,
Mənə çox ürəkdən yanası anam.
Vətəndir anamın anası anam,
Qəlbim, şe'riyyətim anadır, ana!

## VƏTƏNİMİN ƏSGƏRİ

Candan əziz eli olub,
Koroğluya dəli olub.
Kükrəyən dağ seli olub,
Düşmən bağrın bircə anda
sökər oğlu!
Vətənimin əsgər qızı,
əsgər oğlu!

Qulağında dəli nə'rə,
Baş əyməyib bircə kərə!
Dağlar keçib, aşıb dərə,
Ancaq Vətən qarşısında
çökər oğlu!
Vətənimin əsgər qızı,
əsgər oğlu!

Mehdi, Həzi dərsi keçib,
Döyüş üçün o and içib.
İgidliyin yolun seçib,
Ana-bacı qeyrətini
çəkər oğlu!
Vətənimin əsgər qızı,
əsgər oğlu!

Hamı bilir ünvanını,
Qoruyar o, ad-sanını,
Yadlara verməz canını,
Qarı düşmənin qanını
tökər oğlu!
Vətənimin əsgər qızı,
əsgər oğlu!

Ürəyində yarası var,
Qarabağın sədası var.
Hələ öndə davası var,
Sərhəddində mərd qalası
tikər oğlu!
Vətənimin əsgər qızı,
əsgər oğlu!

**Mart, 1999.**

## ZABİT QIZLAR

Əyilməzdir, vüqarlıdır dağ kimi,
Ətirlidir bar-bəhərli bağ kimi.
Elə şö'lə salar bir çıraq kimi,
Zabit qızlar--Vətənimin qalası.

Uca edər el-obanın adını,
Xalqımızın şan-nöhrətli qadını.
Yaşadacaq Tomrisimin adını,
Zabit qızlar--Vətənimin qalası!

Ürəyində bir Xocalı yarası,
Bə'zən yaddan çıxar ciyərparası
Azərbaycan--gözlərinin qarası
Zabit qızlar--Vətənimin qalası!

Qaynar bulaqlara gözü bənzəyər,
Təbibə, məlhəmə sözü bənzəyər.
Marala, ceyrana özü bənzəyər,
Zabit qızlar--Vətənimin qalası!

Şəhidlərin qarşısında baş əyər,
Elə bilmə yaşa dolar, yaş əyər.
Vallah, elə güclüdür ki, daş əyər,
Zabit qızlar--Vətənimin qalası!

Dilbər deyər, od paylayan odayam,
Qarabağsız qəm karvanı, qadayam,
Uzaq düşsəm, Vətən adlı adayam,
Zabit qızlar--Vətənimin qalası!

# SEVGİ YAZI

## SALMA YADINA

Özün məlahətli, boy-buxun bəstə,
Üzünə baxanda sağalar xəstə,
Danışıq ahəstə, gülüş ahəstə,
Düyünlü günləri salma yadına.

Sənə tor quranın özü tordu ki,
Amalı xəbislik, gözü kordu ki,
Özün yandıracaq elə qordu ki,
Düyünlü günləri salma yadına!

Elə bir mənsəbə ucalmasan da,
Vəzifələr tutub, bac almasan da,
Hamıya anasan, qocalmasan da,
Düyünlü günləri salma yadına!

Evdə bir qadınsan, əvəzsiz, taysız,
Sakit təbiətli, haraysız, haysız,
Xətrini istəyən yüzlərlə, saysız,
Düyünlü günləri salma yadına!

Qeyrət-namus həvəsilə oyandın,
Başdan-başa yaxşılığa boyandın.
Qız qalası vüqarında dayandın,
Düyünlü günləri salma yadına!

Acizəm qarşında söz deməyə də,
Qiymət verən oldum hər əməyə də.
Dilbərəm, çataram mən köməyə də,
Düyünlü günləri salma yadına!

**Mart. 1999.**

## NEYLƏRƏM

Səni duyan bilər sevinc tacısan,
Mehriban bacısan, söz inancısan.
Bə'zən də həqiqət adlı acısan,
Doğru danışmasa, dili neylərəm,
Sən olan zamanda gülü neylərəm.

Saflığın çeşmənin gözündən təmiz,
Amalın, paklığın özündən təmiz.
Daxili aləmin üzündən təmiz,
Bəmi haqlamayan zili neylərəm,
Sən olan zamanda gülü neylərəm.

Təmkinli duruşun, gözəl baxışın,
Heç nədən tökülər "isti yağış"ın.
Vallah, mö'cüzədir xalça naxışın,
Axı bacarıqsız əli neylərəm?!
Sən olan zamanda gülü neylərəm.

Hörmətin böyükdür yaşına görə,
Ağlın ölçülübdür başına görə.
Ömrün baharı xoş qışına görə,
Mə'nasız yaşasaq, ili neylərəm,
Sən olan zamanda gülü neylərəm.

Bə'zən köklənirik sarı simə biz,
Birdən inanırıq, görün kimə biz!
Sanki bənd olmuşuq bircə himə biz,
Mizrabım olmasa, teli neylərəm,
Sən olan zamanda gülü neylərəm.

Fəth elədin ürək adlı adanı,
Mən eşidim xoş səsini, sədanı.

İlahi verməsin sənə qadanı,
Süzülən, üzülən tülü neylərəm,
Sən olan zamanda gülü neylərəm.

Dilbərəm, Vətənin məcnunuyam mən,
Sənin tək gözəlin cünunuyam mən.
Könüllər evinin sultanıyam mən,
Məhəbbətim yoxsa, eli neylərəm,
Sən olan zamanda gülü neylərəm.

## KÖNLÜNƏ

Həyatın sınağı dərs verir bizə,
Bə'zən işıq salır qismətimizə.
Gözə dəm veririk, gah da ki, sözə,
Nur yağışın götür çilə könlünə,
Gəl məni bağlama belə könlünə.

İnamı hər şeydən uca bilənlər,
Bu qoca dünyanı qoca bilənlər
Vicdanı satmayıb taca, bilənlər
Həmişə təmizlik dilə könlünə,
Gəl məni bağlama belə könlünə.

Hərdən bulud kimi dolmağın da var,
Bu sınıq könlümü almağın da var,
Belə istiqanlı olmağın da var,
Bir az da soyuqluq ələ könlünə,
Gəl məni bağlama belə könlünə.

Neyləyim, adama tez yovuşanam,
Pislikdən qaçanam, tez sovuşanam.
Dilbərəm, fikrinlə mən qovuşanam.
Allahım salacaq şö'lə könlünə,
Gəl məni bağlama belə könlünə.

## SƏNİ

Bir gözəlsən, vallah, güldən incəsən,
Sən butasan, açılmamış qönçəsən.
Ürəyim kimisən, ürəyimcəsən,
Zərif bir könülə bənzədim səni.

Nazənin yerişin elə yaraşır,
Gül ətirli sözlər dilə yaraşır.
Sənin kimi sona gölə yaraşır,
İncimisən, gülə bənzədim səni.

Sevinmə qəlbimə dəyəndə, gülüm,
Qəmlənib, alnımı düyəndə, gülüm,
Könlümün budağın əyəndə, gülüm,
Nəğməli bülbülə bənzədim səni.

Ölüncə çəkərəm sənin nazını,
Belə dilləndirmə könül sazını,
Gəl bada verməyək ömrün yazını.
Saçları sünbülə bənzədim səni.

<u>**iyul, 1999.**</u>

## YERİM YOX

Gəl ağlama, bu nisgildən qurtar da,
Vallah, ahın, vaxt gələr ki, tutar da.
Yol gedirik həyat adlı qatarda,
Göz yaşını saxlamağa yerim yox.

Bilirəm ki, boşaltmaqdır ürəyi,
Bu göz yaşı kimin olar gərəyi?!
Mən də belə kövrəklərin kövrəyi,
Göz yaşını saxlamağa yerim yox.

Həyat bizi daşa vurub əzər də,
Saçımızda dənə dönüb gəzər də.
Budağından lap və'dəsiz üzər də,
Göz yaşını saxlamağa yerim yox.

Səni bildim ümid yeri, neylədin?
Ürəyimdə telin biri, neylədin?
Mən atmışdım qoşa zəri, neylədin?!
Göz yaşını saxlamağa yerim yox.

Biz körpüdən o sahilə keçənəm,
Yolundakı dərd-qəmi də biçənəm.
Mən ki, sərin yağışları içənəm.
Göz yaşını saxlamağa yerim yox.

O da sənin qismətinə tuş düşüb,
Taleyinə bir ürəyi daş düşüb.
Dilbərin də gözlərinə yaş düşüb,
Göz yaşını saxlamağa yerim yox.

Noyabr, 1999.

## FAİQİN TAYI YOXDUR

Faiqim--oğul balam,
Qənd balam, noğul balam.
Yaman dəcəllik edir,
Ay mənim "cuğul" balam!

Bülbül gülə yaraşıq,
Nəğmə telə yaraşıq.
Evimin sevinc payı
Faiq elə yaraşıq.

Gur işıqlı çıraqdı,
Yazılmamış varaqdı.
Xoş xəbərdən soraqdı,
Verir dilə yaraşıq.

Faiqim çox əzizdi,
Bir ümmandı, dənizdi.
Gözəl baxışları var,
Çöhrəsi ağbənizdi.

Anasına pənahdı,
Atasına sabahdı.
Lap evi dağıtsa da,
Onu döymək günahdı.

Baba, nənə şıltağı
Hər şeyə var marağı.
Faiqin tayı yoxdur,
Evimizin çırağı.

## OLMAZ

Mən bir çiçək içində,
Çiçək ləçək içində.
Bax bu boyda, biçimdə
Mədinəmə tay olmaz!

Mədinəm-müqəddəsim,
Təmiz eşqim, həvəsim.
Ay mənim gül nəfəsim,
Sənə bənzər ay olmaz!

Mədinəm--əziz balam,
Qəlbi tərtəmiz balam.
Uca tanrıya salam,
Belə şirin pay olmaz!

## JALƏ ÜÇÜN

İpəkdir telin sənin,
İncədir belin sənin.
Batıb qəndə, nabata,
Şirindir dilin sənin.

Boyuna qurban olum,
Soyuna qurban olum.
Tez böyüsün Jaləmiz,
Toyuna qurban olum.

Nənəsi həkim xanım,
Nazını çəkim, xanım.
Jaləmi tez görməsəm,
Boynumu büküm, xanım.

Evimin bülbülüdür,
Bağçamızın gülüdür.
Babasının dəcəli,
Saçları sünbülüdür.

O, Pərvinə bir inci,
Xəyalənin sevinci.
Evə gözəllik verir,
Ona deyək dürr, inci.

Ceyrana bənzəri var,
Naxışı var, zəri var.
Üzərliyi yandırın,
Bir az da nəzəri var.

Jalənin gözü gözəl,
Siması, üzü gözəl.
Tay tapılmaz qızıma,
Olsa da yüzü gözəl.

**Oktyabr, 1999.**

# MÜNDƏRİCAT

## EL DUASI


SAĞ OLSUN HEYDƏRİN, VƏTƏN 4
AZƏRBAYCAN, SƏNİ HEYDƏR YAŞATDI 5
HEYDƏRİM 6
İLAHİ, QORU 7
EL ATASI 9
"İLİN ADAMI" 10
YETİRİB 12
XALQ SƏNƏ MÜƏLLİM DEDİ 13
BİR QALA 15
DİLƏ DÜŞÜB 16


## YURD SEVDASI


MƏNİM NAXÇIVANIM 18
QOY DANIŞIM... 19
VƏTƏN 20
OLDU 22
QƏDƏR 23
BİR GÜNƏŞİN ODU 24
MƏNİM BEŞİYİM 25
ANA KƏNDİM 26
ŞƏHİD YATIR QUCAĞINDA 27
BU DAĞLARIN BAŞINA 28
XUDU MÜƏLLİM 29
QARA BAĞLAMA 30
XOCALI 32
QARABAĞ 33
DƏDƏ QORQUD--ATA KİTABIM 34
ANADIR 35
VƏTƏNİMİN ƏSGƏRİ 36
ZABİT QIZLAR 38


## SEVGİ YAZI


SALMA YADINA 40
NEYLƏRƏM 41
KÖNLÜNƏ 42
SƏNİ 43
YERİM YOX 43
FAİQİN TAYI YOXDUR 44
OLMAZ 45
JALƏ ÜÇÜN 46

**Dilbər CƏFƏRLİ**

# AZƏRBAYCAN, SƏNİ HEYDƏR YAŞATDI

*(şe'rlər)*

*Nəşriyyat redaktoru*
**Muxtar QASIMZADƏ**

*Texniki redaktoru*
*və kompüter tərtibatı*
**Rafael BABAYEV.**

Naxçıvan, "Əcəmi", 2001

Yığılmağa verilmiş 08.01.2001. Çapa imzalanmış 06.02.2001. Formatı 29,7X42 1/16 "Tayms" qarnituru. Ofset çap üsulu. Ofset kağızı. Həcmi 3 ç.v. Tiraj 300 nüxsə. Sifariş № 99.

Naxçıvan MR Dövlət Mətbuat Komitəsi.
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Təbriz küçəsi, 1.